Samir Neymanoğlu
Siqaret biznesinin tüstüsü
«Azadlıq» qəzeti, 26-27.06.2003-09-23

Bu biznesin dövriyyəsinin tam yarısı rəsmi hesabatlardan yayınır

2003-cü ildə Azərbaycanın dövlət büdgəsinin gəlirləri təqribən 1,2 mlrd. dollar səviyyəsində proqnozlaşdırılıb. Hökümət rəsmiləri dövlət büdcəsinin gəlirlərinin sabit xətlə artmasını islahatların uğurlu nəticəsi kimi qələmə versələr də, müstəqil ekspertlərin fikrincə, ölkənin hazırki iqtisadi potensialı bu göstəricinin, ən azı, iki dəfə çox olmasına imkan verir.

Bu yazıda dövlət büdcəsindən yayınan sahələrdən birinin – siqaret biznesinin dövriyyəsini və dəyərini qiymətləndirməyə çalışacağıq. Tütün məlumatların dövriyyəsinin gizlədildiyi mətbuatın ən aktual mövzularından biri olsa da, bu biznesin iştirakçıları hələ də leqallaşmağa tələsmir. Hələ 4 il bundan əvvəl baş nazirin birinci müavini Abbas Abbasov dövlət büdcəsinin tütün məmulatları biznesindən 120 mln. dollar dolayı itkilər verildiyini etiraf etmişdi.

Tanınmış iqtisadçı Nazim İmanov isə 2000-ci ildə bir qutu siqaretin 0,03 dollara rəsmiləşdirilməsinə aid mətbuata gömrük bəyannamələri təqdim etmişdi. Bunu təkzib etməyin mümkünsüz olduğunu hiss edən Dövlət Gömrük Komitəsinin rəhbərliyi N.İmanovun velosiped icad etmədiyini və faktla bağlı artıq istintaq aparıldığını bildirmişdi. Bu müddət ərzində siqaret biznesində yerli istehsalın payı idxalı üstüləsə də, bu biznesdən büdcə itkiləri davam etməkdədir. Bəyan olunan istintaqdan isə nəinki xəbər var, əksinə, hesabatlardan Dövlət Gömrük Komitəsinin üçüz qiymətlər praktikasını uğurla davam etdirdiyi məlum olur.

Bazarın tutumu

Siqaret dövriyyəsindəki yayınmaları müəyyənləşdirmək üçün əvvəlcə ölkənin bu məhsula olan tələbatını öyrənməyə çalışaq.

Hökümətin müvafiq strukturlarının ölkənin siqaret bazarının tutumuna aid açıqlamalar verilməsi də bu biznesin arxasının möhkəm dayaqlara söykəndiyini təsdiq edir. Siqaret bazarının tutumuna aid rəsmi məlumatların olmadığını nəzərə alaraq başqa yolla bu göstəriciyə aydınlıq gətirməyə çalışaq. Keçmiş Dövlət Plan Komitəsinin 1988-1990-cı illərdəki hesabatına görə, «Sovet Azərbaycanı»nın siqaret tələbatı 10 mlrd. ədəd (dənə) təşkil edib. Azərbaycanı müəmmalı şəkildə tərk edən «RCR Tobakko»nun rəhbərinin 1997-ci ildə baş nazir Artur Rəsizadəyə ünvanladığı məktubda da yerli bazarın təlabatının 9,5 mlrd. ədəd olduğu bildirilib. Qeyd edək ki, regionda fəaliyyət göstərən xarici distribütorlar Azərbaycan bazarının tutumunu 9 mlrd. ədəd qiymətləndirərək marketinq siyasəti aparır. Bu məlumatlara istinad edərək biz də öz araşdırmamızda siqaret bazarının tutumunu 9 mlrd. ədəd səviyyəsində götürərək hesabatlardan yayınan dövriyyənin həcmini qiymətləndirməyə çalışaq.

Gizli dövriyyənin tüstüsü

Dövlət Statistika Komitəsinin (DSK) «2002-ci ildə sənaye məhsullarının ən mühüm növlərinin istehsalı»na aid hesabatına görə, ötən ildə 6,296 mlrd. ədəd siqaret istehsal olunub. Həmin hesabatda 2003-cü ilin 1 yanvar tarixində hazır məhsul qalığı 2,094 mlrd. ədəd təşkil edib. 2002-ci ildə yerli istehsaldan 3,570 mlrd. ədəd siqaret ixrac olunub. Ötən ilin daxili satışının həcmini düzgün qiymətləndirmək üçün 2002-ci ilin 1 yanvar tarixinə olan mal qalığını da qeyd etmək vacibdir. Həmin tarixə mal qalığı 2,99 mlrd, ədəd təşkil edib. Hesabatdan göründüyü kimi, 1 yanvar 2003-cü ilə olan mal qalığı əvvəlki illə müqayisədə 896 mln. ədəd azalıb ki, bu da

həmin həcmin 2002-ci ildə satıldığını göstərir. Beləliklə, siqaret istehsalının həcmini, ixrac və anbar qalığını əks etdirən göstəriciləri bilərək ötən il istehlak bazarında 3,622 mlrd, ədəd yerli siqaret satıldığı məlum olur. DGK-nın «2002-ci ildə xarici ticarət əlaqələri»nə aid hesabatına görə, ötən il ölkəyə 1,036 mlrd. ədəd siqaret idxal olunub. İstehlak bazarında satışa çıxarılan yerli istehsala idxalı da əlavə etsək, rəsmi statistikaya görə, ötən il 4,658 mlrd. ədəd siqaret istehlak olunub. Bu isə, öz növbəsində, siqaret biznesinin dövriyyəsinin təqribən yarısının rəsmi hesabatlardan yayındığı deməkdir.

Siqaret biznesinin dövriyyəsinin rəsmi hesabatlardan yayındığını daha bir yolla təxmin etməyə çalışaq. Məlum olduğu kimi, siqaret aksiz vergilərinə cəlbolunan mallar sırasındadır. Aksiz markalı daxili bazara çıxarılacaq yerli istehsalın və həmçinin idxal olunacaq siqaretin sayına (qutusuna) uyğun olaraq verilir. Aksiz markalarını saxlayan qurumdan – Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən (QKDK) aldığımız məlumata görə, ötən il 74,568 mln. ədəd xarici istehsala (yaxud 1,491 mlrd. ədəd siqaret üçün) aksiz markası verilib. Komitədən verilən məlumata görə, 270,08 mln. ədəd də (yaxud 5,4 mlrd. qutu siqaret üçün) yerli istehsalçıya aksiz markası verilib. Beləliklə, idxalçılar 1,491 mlrd. ədəd siqaret üçün aksiz markası götürsələr də, 1,031 ədəd idxal etdiklərini, istehsalçı isə 5,4 mlrd. ədəd siqaret (üçün aksiz götürdüyü halda, ötən ilin istehsalından 2,726 ədəd siqareti daxili bazara çıxardığını bildirir. Təbii ki, həm idxalçının, həm də istehsalçının öz dövriyyələrindən artıq aksiz markasına pul xərclədiyi inandırıcı görünmür. Qeyd edək ki, ilin ilk günlərindən etibarən biznes iştirakçılarının aksiz markası üçün QKDK-ya müraciət etməsi də onların aksiz markası ehtiyatının olmadığının təsdiqləyir. Bazar iştirakçılarının aksiz markalarından «gen-bol» istifadəsinin səbəbini yəqin ki, izah etmək artıqdır. Siqaret biznesinin iştirakçıları öz dövriyyələrini gizlətmək üçün bir dövlət qurumunun xidmətindən istifadə etsələr də, başqa bir dövlətqurumunda bu iz qalıb. Siqaret yanıb tüstülənsə də, onun sayını hesablamaq mümkün olur. Və bu hesablama idxaldan 455 mln. ədəd, yerli istehsaldan isə 2,674 mlrd. ədəd siqaretin rəsmi dövriyyədən yayındığını göstərir. Dolayısı ilə dövlət qurumlarının hesabatından idxal və istehsaldan birgə 3,129 mlrd. ədəd siqaretin yayındığına baxmayaraq, bu fakt heç bir hüquq-mühafizə orqanının diqqətini cəlb etməyib.

Sonra alınan rəqəmin siqaret dövriyyəsinin təqribən 34 faizini təşkil etdiyi ortaya çıxır. Siqaret bazarında Rusiya, Ukrayna, Çin və başqa ölkələrdən aksiz markasız qaçaqmalçılıq yolu ilə gətirilən siqaretlərin dövriyyəsinin təqribən 10-12 faiz olduğunu (bu göstərici marketinq şirkətlərinin araşdırılmaları nəticəsində müəyyən edilib – S.N.) nəzərə alsaq, ikinci versiyada da siqaret biznesinin dövriyyəsinin təqribən yarısının gizlədildiyi məlum olur.

İdxal-ixrac əməliyyatlarının sirləri

Siqaret istehsalı və idxalı mövzusunu araşdırarkən dövlət büdcəsinin ancaq onun dövriyyəsinin gizlədilməsindən deyil, həmçinin xarici ticarət əməliyyatlarından da itirdiyi məlum olur. Görünür, siqaret biznesinin iştirakçılarına yalnız dövriyyənin gizlədilməsi azlıq edir. Araşdırmalarımız təsdiq edir ki, «milli biznesmenlər»imiz «məmur biznesmenlərimiz»in göməyi ilə idxal-ixrac əməliyyatlarında da böyük «qənaət» edə bilirlər. Qeyd edək ki, «çevik biznesmenləri» bu dəfə də pis vəziyyətə qoyan riyazi hesablaşmalardır.

Məlumat üçün xatırladaq ki, 2002-ci ilə kimi DGK-nın xarici ticarətə aid hesabatlarında siqaret əməliyyatlarının natural sayı deyil, yalnız onun dəyəri göstərilirdi. Ona görə də həm DGK, həm də digər dövlət qanunlarına siqaret qaçaqmalçılığının dövriyyəsini müəyyən etmək bir qədər çətin olurdu. Amma ilk dəfə 2002-ci ildə Beynəlxalq Valyuta Fondu və Dünya Bankının təşkil etdiyi tələblərindən sonra DGK bu əməliyyatlar haqqında tam məlumat verməyə məcbur olub. Verilən

məlumatlardan isə bəlli olur ki, siqaretin xarici əməliyyatlarının rəsmiləşdirilməsi simvolik xarakter daşıyır. Belə ki, ötən 3,57 mlrd. ədəd (178,5 mln. qutu) siqater ixracı əməliyyatı 11,693 mln. dollar, 1,031 mlrd. ədəd (515 mln. qutu) idxal əməliyyatı isə 7,77 mln. dollar səviyyəsində qiymətləndirilib. Bu isə, öz növbəsində, bir qutu siqaretin ixrac əməliyyatlarında 320 manat, idxalda isə 738 manat rəsmiləşdirilməsi deməkdir. Yerli istehsalın orta qiymətinin 2000 manat, xarici istehsalı isə 3500 manata olduğunu nəzərə alsaq, yayınmaların miqyası göz qarşısındadır. Siqaret əməliyyatlarında onun ucuz rəsmiləşdirilməsi ƏDV-dən yayınmaqla yanaşı, bazara arzuolunmaz şəxslərin girişinə imkan verməmək məqsədi daşıyır. Belə ki, gömrükçülərin idxal əməliyyatlarında «qiymət oyunu» onu idxal edən şəxsin kimliyindən asılı olaraq vergi tətbiq etməyə imkan verir.

Siqaret ixracı vergi və rüsumlara cəlb olunmasa da, daxili istehsalçının qiyməti aşağı göstərməsində son məqsəd mənfəəti göstərməməkdir. Bunun və digər əməliyyatların nəticəsidir ki, bazarın təqribən 70 faizinə nəzarət edən (bu ifadə ETB-nin İdarə Heyətinin sədri Rüfət Quliyevə məxsusdur – S.N.) «European Tobakko Baku» «ziyanla» işləyən və bu «səbəbə» görə də mənfəət vergisi ilə yanaşı, həm də səhmdarlarına dividend ödəyə bilmir. Yeri gəlmişkən, şirkət mənfəətə çıxdığı haqda ilk dəfə 2002-ci ilin sonunda məlumat verib və inhisarcımızı, nəhayət ki, ziyanla üzülüşməsi münasibətlə təbrik etmək olar.

Ödəmələr və itkilər

Siqaret biznesindən dövlət büdcəsinə daxilolmalara nəzər yetirdikdə aparılan əməliyyətların «bəhrəsi» daha aydın görünür. ETB-nin rəsmi açıqlamalarına görə, şirkət ötən il dövlət büdcəsinə və büdcədənkəna fondlara 127 mlrd. manat (25,9 mln. dollar) vəsait ödəyib. Şirkət bu məlumatı açıqlayarkən qeyri-neft sektorunda ən iri vergiödəyicisi olduğunu bildirir. Lakin ödəmələrin təsnifatının açıqlanmaması istehsalçının fəaliyyəti ətrafında çoxlu sual yaradır.

Aldıgımız məlumata görə, göstərilən rəqəmə həmçinin işçilərin maaşı, enerci və s. xərclər də daxil edilib. Tütün və tütün məmulatlarının xarici ticarətindən isə, DGK-nın hesabatına görə, ötən il 55,87 mlrd. manat (11,4 mln. dollar) daxil olub. Göründüyü kimi, ETB-nin verdiyi məlumatın natamamlığı nəzərə alınması belə, ötən il dövlət büdcəsinə və büdcədənkənar fondlara 37,3 mln. dollar vəsait ödənilib ki, bu da dövlət büdcəsinin gəlirlərinin 3,1 faizini təşkil edir. Baş nazirin birinci müavini A.Abbasov isə 4 il bundan əvvəl dövlət büdcəsinin bu biznesdən 120 mln. dollar (bu rəqəm ötən ilin büdcəsinin gəlirlərinin 12 faizi deməkdir) itirdiyini bildirmişdi. Göründüyü kimi, statistik məlumatlar əsasında aparılan bu hesablamadan ölkə büdcəsinin tütün və tütün məmulatları itkilərinin miqyasını gözaltı etməyə imkan verir.

Qeyd edək ki, siqaret əməliyyatlarında qiymətlərin aşağı göstərilməsinə aid suallarımızı istehsalçı, gömrük və vergi orqanları cavablandırmaqdan imtina edib.

Rəsmi rəqəmlərdən alınan təsürrat

| Sayı | İstehsal olunub | İxrac olunub | Mal qalığı | Aksiz markası: alınıb | Aksiz markası: Çatmır (?) | İdxala aid: İdxal olunub | İdxala aid: Aksiz markası: alınıb | İdxala aid: Aksiz markası: catmır |
|---|---|---|---|---|---|---|---|---|
| ədəd | 6.296 mlrd | 3.570 mlrd | 2.095 mlrd | 270.08 mln | 134.7 mln | 1.031 mlrd | 74.568 mln | 23.05 mln |
| qutu | 314.8 mln | 178.5 mln | 104.8 mln | 270.08 mln | 134.7 mln | 51.6 mln | 74.568 mln | 23.05 mln |